AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

ARTİ AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

MÜTDA MƏKTƏBƏQƏDƏR VƏ ÜMUMİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

birbank

RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

YARIMFİNAL MƏRHƏLƏSİ

Ad ______________________ Soyad ______________________

## Aşağı yaş qrupu

## 8 və 9-cu sinif

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI

- İmtahan müddəti — **120 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- 1-7-ci suallar **4**, 8-13-cü suallar **5**, 14-20-ci suallar **6** balla qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Yarımfinal mərhələsinin nəticələrini **11.03.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

**1. Hansı nümunədə bütün isimlər mənsubiyyət şəkilçisi ilə işlənmişdir?**

A) Sən uşaq könlümün eşqi, ilqarı,
Andıydın, ustadım, dostum, yoldaşım!
(M.Dilbazi)

B) Demirəm ki, zirvələrdə qartalam mən,
Köksü şirin nəğməli bir körpə quşam.
(M.Gülgün)

C) Süzülür gözlərin, çatılır qaşın,
Mənim öz gülümsən, şeyda bülbülümsən
(Z.Cabbarzadə)

D) Qısılıb mürgülü xatirəsinə
Bir sevda ağlayır içimdə mənim.
(N.Kəsəmənli)

E) Yaman gündə sənin, xoş gündə sənin,
Həyat ağacıyam könlündə sənin. (M.Yaqub)

**2. Aşağıdakı sözləri fərqləndirilmiş feillərlə uyğunlaşdırın.**

1. tərk etmək
2. istehsal etmək
3. nəşr etmək
4. azad etmək
5. izin vermək

a. Nə qədər xahiş etsək də, bizi içəri *buraxmırdılar*.
b. Abituriyentlərə kömək məqsədilə vəsait *buraxmışdılar*.
c. Çox dəyişmişdi, əvvəlki zərərli vərdişlərini *buraxmışdı*.
d. Bu zavod müxtəlif çeşidlərdə mallar *buraxır*.
e. İki il saxladığı quşu qəfəsdən çıxarıb *buraxdı*.

A) 1-c, 2-a, 3-b, 4-e, 5-d
B) 1-a, 2-b, 3-e, 4-d, 5-c
C) 1-a, 2-b, 3-d, 4-e, 5-c
D) 1-c, 2-d, 3-b, 4-e, 5-a
E) 1-d, 2-a, 3-c, 4-e, 5-b

Respublika Fənn Olimpiadası

**3. Xüsusi isim olmadığı halda, isim cümlənin ortasında böyük hərflə yazılmışdır. Bunun səbəbi nədir?**

A) Söz birləşməsinin asılı tərəfidir.
B) Ara sözün tərkibində işlənmişdir.
C) Müəllifin sözündən sonra gələn vasitəsiz nitqin ilk sözüdür.
D) Tabeli mürəkkəb cümlənin budaq cümləsinin ilk sözüdür.
E) Tabesiz mürəkkəb cümlənin ikinci komponentinin ilk sözüdür.

**4. Cədvələ əsasən uyğunluğu müəyyən edin.**

| Hadisələr | |
|---|---|
| 1 | Eyni zamanda baş verir. |
| 2 | Bir fikir digəri ilə qarşılaşdırılır. |
| 3 | Biri səbəbini, digəri nəticəsini bildirir. |

a. O, qəzetlərdə oxuduğu xəbərlərdən müharibə dəhşətinin həqiqətini hiss edir və bu hiss onun əsəblərini gərginləşdirirdi.

b. Qonaqlar getmək istədi, ev yiyəsi buraxmadı.

c. Söhbət üçün çənə lazımdır, saqqal üçün həna.

d. Gecə can verir, üfüqlər ağarır, kainat ərik təkin çiçəklənirdi.

e. Orxan yüksək nəticə toplayır, Eldar isə bunu bacarmır.

A) 1 – c, d; 2 – b, e; 3 –a
B) 1 – a, d; 2 – b, c; 3 – e
C) 1 – c, e; 2 – a, b; 3 – d
D) 1 – b, d; 2 – c, e; 3 – a
E) 1 – a, c; 2 – d, e; 3 – b

**5. Məmməd Namazın “Hamının günəşi” hekayəsindən verilmiş parçada nöqtələrin yerinə kimin adı yazılmalıdır?**

*“Fidan dahi rəhbərin ən çox xoşladığı mahnını oxuyacaqdı. Bu, ........................ sözlərinə bəstələnmiş «Dünya sənin, dünya mənim» mahnısı idi.”*

A) Niyaməddin Musayev
B) Səməd Vurğun
C) Bəxtiyar Vahabzadə
D) Məmməd Araz
E) Zəlimxan Yaqub

**6. Aşağıdakılardan birində nitq hissəsi düzgün göstərilməyib.**

A) antibio`tik (sifət) - antibioti`k (isim)
B) mü`tləq (ədat) - mütlə`q (sifət)
C) akade`mik (isim) - akademi`k (sifət)
D) xü`lasə (modal söz) - xülasə` (isim)
E) sati`rik (isim) - satiri`k (sifət)

**7. Mehdi Hüseynin “Odlu qılınc” hekayəsinin sonunda Varazın sualına cavab olaraq Cavanşir deyir: *“Ata, qara dırnaqlı düşmən atları ana vətənin müqəddəs Kür sularından bir damcı da içə bilmədi. Lakin düşmənlər özləri bu sudan doyunca içdilər.”***
**Bu cümlədəki “düşmənlər özləri bu sudan doyunca içdilər” ifadəsi ilə Cavanşir nəyi nəzərdə tutur?**

A) Düşmən süvarilərinin atlarını Kürün bəri tayına keçirə bildiyini
B) Düşmən ordusunun geri çəkilərkən çay sahilində dincəldiyini
C) Düşmənin məğlub edilərək Kür çayına töküldüyünü
D) Girdman ordusunun rəhm edərək düşmən əsgərlərinə su verdiyini
E) Kür çayının daşaraq düşmən düşərgəsini su altında qoyduğunu

**8. Fikirlərdən biri yanlışdır.**

A) İsmi xəbərli sadə cümlədə zərfliyin işlənməsi mümkündür.
B) “Qıy” sözü üç müxtəlif məna kəsb edən omonim söz kimi işlənə bilir.
C) “Adam tanıyıram, ......” cümləsini fərqli tamamlamaqla həm sadə, həm də mürəkkəb cümlə yaratmaq olar.
D) Müəyyən yiyəlik halda olan söz işlənmiş cümlədə həmin sözə aid mənsubiyyət şəkilçili söz olmalıdır.
E) “Səmimiyyətlə” sözünün tələffüzündə səsartımı, səsdüşümü və səsuzanması hadisəsi müşahidə olunur.

**9. Nümunənin morfoloji təhlili ilə bağlı yanlış fikirləri seçin.** “Sonra babam səssizcə dayanıb gözləri yaşarıncaya qədər düşmənin işğal etdiyi şəhərlərə, kəndlərə tərəf baxardı” (M.Çəmənli)

1. Nümunədə həm təsriflənən, həm də təsriflənməyən feil işlənmişdir.
2. Köməkçi nitq hissələrindən yalnız qoşma var.
3. Əsas nitq hissələrindən isim, zərf, feil və sifət işlənmişdir.
4. İsimlər üç müxtəlif halda işlənmişdir.
5. Nümunədə sadə, düzəltmə və mürəkkəb sözlər var.

A) yalnız 3, 4 B) 2, 4, 5 C) 1, 3, 5
D) yalnız 2, 3 E) 1, 4, 5

**10. *“Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında”* sərəncam kim tərəfindən imzalanmış və bu sərəncama görə hansı gün *“Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü”* kimi qeyd edilir?**

A) İ.Əliyev – 1 avqust
B) Ə.Elçibəy – 1 sentyabr
C) M.Ə.Rəsulzadə – 21 fevral
D) H.Əliyev – 21 fevral
E) H.Əliyev – 1 avqust

Respublika Fənn Olimpiadası

**11. Ə.Kürçaylının "Qaranquş" şeiri ilə bağlı doğru fikirləri seçin.**

1. Şeir vahidi bənddir, gəraylı şəklində qafiyələnmişdir.
2. Soyuq və yağışlı qış günündə ana qaranquşun düşdüyü çətin vəziyyət əks olunmuşdur.
3. Müəllif anaların nə qədər fədakar olduğunu bədii boyalarla əks etdirmişdir.
4. Müəllifin fikrincə, qar da yağsa belə, ana qaranquş dayanmayacaq, yenə balalarına yem aparacaq.
5. Qaranquşun balalarından ötrü düşdüyü vəziyyətə görə şair ona yazığı gəldiyini gizlətmir.

A) 1, 2  B) 2, 3  C) 3, 4
D) 1, 3  E) 2, 4

**12. Eyler-Venn diaqramına əsasən doğru fikirləri müəyyən edin.**




1. Epik əsərdir, nəsrlə yazılmışdır.
2. Əsərdə uşaq əməyinin istismar olunması məsələsinə toxunulub.
3. Əsərin qəhrəmanı kiçik yaşlarından məhrumiyyətlərlə üzləşən obrazdır.
4. Kimsəsiz qalmış uşağın qarlı bir gündə faciəvi həyatı əks olunub.
5. Nəqqaşın dediyi sözlər gələcəyə inam hissini itirdiyini əks etdirir.
6. Ölümlə üz-üzə qalan qızcığazı həkim belə xilas edə bilmir.

A) 3, 4, 6  B) 2, 4, 5  C) 1, 3, 5
D) 1, 2, 3  E) 1, 4, 6

**13. Elçin Hüseynbəylinin "Nəvə" hekayəsində Kamalın xarakterindəki inkişafı göstərən mərhələlərin ardıcıllığını müəyyən edin:**

1. Əməyin nəticəsində əllərinin codlaşması və nənəsinin razılığı ilə qürur duyması.
2. Futbol oyununda ancaq özünün kapitan olmasını və qalib gəlməsini tələb etməsi.
3. Sevdiyi qlobusu dostuna bağışlaması və daxili rahatlıq tapması.
4. Şəhərdə sərçələri yeyən pişiyi balkonunda ac-susuz saxlayıb cəzalandırması.

A) 4, 2, 1, 3  B) 2, 4, 1, 3
C) 4, 1, 2, 3  D) 1, 2, 4, 3
E) 2, 1, 3, 4

Respublika Fənn Olimpiadası

**14. Nümunədə işlənmişdir.**

*Nazlandıqca sərin külək,*
*Sahillərə sinə gərək.*
*Bizim Bakı – bizim ürək! (S.Vurğun)*

A) metonimiya, inversiya, təzad
B) inversiya, təşbeh, metafor
C) metafor, metonimiya, epitet
D) simvol, inversiya, təzad
E) epitet, metonimiya, təşbeh

**15. "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy" ilə bağlı hansı fikir yanlışdır?**

A) Uruzun fikrinə görə, atanın ölməsi oğul üçün eyib hesab olunur.
B) Düşmənlə son döyüşdə Oğuz elindən 300 igid şəhid olur.
C) Uruzun döyüş təcrübəsi az olduğu üçün atası onun döyüşə girməsini istəmir.
D) Qırx qulu, cariyəni qəhrəmanlıq göstərən bəylərin başına çevirib azad edir, Uruza arxalıq, torpaq verir.
E) Uruz əsirlikdə olarkən atası ilə görüşür, ondan geri dönməsini istəyir.

**16. Verilənlərə əsasən uyğunluğu müəyyən edin.**

1. Cümlə üzvlərindən yalnız  mübtəda və xəbər işlənmişdir.
2. Tərkibində iki müxtəlif köməkçi nitq hissəsi var.
3. Mübtədası bərpa olunmayan cümlədir.

*a. Əlbəttə, arxanca danışan insanlardan öndə olmağın sənə fəxarətdir.*
*b. Sən demə, hamısını özü üçün toplayıbmış.*
*c. Olduqca gərgin bir günün sonunda qazandıqları  Ələddinin qisməti idi.*
*d. Sizin hörmətinizi saxlayanların hörmətini saxlamalısınız.*
*e. Su səhəngi su yolunda sınar.*

A) 1-e; 2-b, d; 3-a B) 1-c; 2-a; 3-d
C) 1-d; 2-a,  3-c D) 1-c; 2-a, b; 3-d,e
E) 1-a, c; 2-e; 3-b

**17. Cümlələrdən biri cümlə üzvlərinə görə yalnız bir cür təhlil edilir:**

A) Həkim qardaşını çox gözləmişdi.
B) Gözəl gözlərini bir nöqtəyə zilləyərək danışırdı.
C) Mehriban dostlarından bir müddət uzaqlaşacaqdı.
D) Əli həkim çağırdı, mən də təcili getdim.
E) Müəllim yoldaşını görəndə dərs ilinin ilk günləri idi.

**18. Cədvəldə "Koroğlu" dastanının qolları ilə bağlı hansı fikirlərin yeri dəyişdirilsə, uyğunluq gözlənilmiş olar?**

| "Koroğlu ilə Bolu bəy" qolu | "Durna teli" qolu |
|---|---|
| 1. Hasan paşa Koroğlunun tutulub gətirilməsi barədə namə alır. | 4. Koroğlu ilə dostlaşan obraz iştirak edir. |
| 2. Koroğlu döyüş zamanı Qəcər Alıya əl-qol açmağa imkan vermir, şeşpər ilə onu vurub öldürür. | 5. Dəlilər Xoca Əzizin gətirdiyi xəbərin doğru olduğuna tam inanmasalar da, Aşıq Cünunun sözlərindən sonra hamısı döyüşə hazırlaşmağa başladılar. |
| 3. Koroğlunun dəlilərinin qocaya kömək etməsi onların xalqın qayğısına qalmasının digər bir sübutudur. | 6. "Mən getdim. Siz dalımca gələrsiniz, Bağdad  bağlarında sizi gözləyəcəyəm". |

A) 2, 4 B)  3, 4 C) 1, 5 D) 3, 5 E) 2, 6

Respublika Fənn Olimpiadası

**19. Cədvələ əsasən uyğun bəndi seçin.**

| Yazılışı doğrudur | Yazılışı yanlışdır |
|---|---|
| 1. çamaşır | 6. roket |
| 2. oftalmoloq | 7. pedoqogika |
| 3. messenat | 8. konfederasiya |
| 4. kinemotoqraf | 9. limanad |
| 5. prodüser | 10. çamadan |

A) 1, 2, 4, 5, 7 B) 2, 4, 5, 6, 9
C) 3, 6, 7, 9, 10 D) 2, 5, 6, 7,  9
E) 1, 3, 5, 7, 10

**20. Hansı frazeoloji birləşmələrin izahı düzgün verilməyib?**

**1. qurdunu öldürmək** - *təhlükədən xilas etmək*
**2. qurdu oyanmaq** - *içində intiqam hissi oyanmaq*
**3. öhdəsinə almaq** - *hansısa işi birinin boynuna qoymaq*
**4. gözündə ucalmaq** - *kiminsə nəzərində nüfuzu artmaq*
**5. ilan boğazından çıxmaq** - *çox təhlükəli, ağır, çıxılmaz vəziyyətdən xilas olmaq*

A) 1, 2, 3 B) 3, 4, 5 C) 1, 3, 5
D) 1, 3, 4 E) 2, 3, 5